# Vaşinqtonda azərbaycanlı xanım rəssamların rəsm əsərlərindən ibarət sərgi açılıb

**Beynəlxalq Rəssamlar Günündə Vaşinqton şəhərində ölkəmizin Amerika Birləşmiş Ştatlarındakı səfirliyi və ABŞ-Azərbaycan Ticarət Palatasının birgə təşkilatçılığı ilə azərbaycanlı xanım rəssamlar Nigar Bağırova və Xatirə Həsənzadənin rəsm sərgisi açılıb.**

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Vaşinqton şəhərində fəaliyyət göstərən diplomatik nümayəndəliklərin təmsilçiləri, yerli cəmiyyətin üzvləri, eləcə də ABŞ-də yaşayan soydaşlarımız iştirak ediblər.

Tədbirdə çıxış edən ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov sərgi zamanı eyni zamanda qadınların səlahiyyətlərinin artırılmasının da qeyd edildiyini vurğulayıb.

Azərbaycanın ABŞ-dəki səfirinin xanımı Zümrüd İbrahim Azərbaycan dövləti tərəfindən mədəniyyət və incəsənətə göstərilən xüsusi qayğıdan danışıb, hər iki azərbaycanlı xanım rəssamın ölkəmizdə, eləcə də dünyanın bir neçə yerində sərgilərinin keçirildiyindən bəhs edib.

Tədbirin bədii hissəsində Tofiq Quliyev, Fərhad Bədəlbəyli, Emin Sabitoğlu və Maestro Niyazinin bəstələdiyi milli musiqi nümunələrimiz ifa edilib.

Qeyd edək ki, sərgi dekabrın 11-dək davam edəcək.

Azərbaycan.- 2023.- 10 dekabr, № 270.- S.7.